# Qarabağın tacı olan Şuşa şəhəri bizim qürur yerimizdir



***Vətən müharibəsində əldə edilən parlaq qələbə ilə Şuşanın işğaldan azad olunması Ermənistanın məğlubiyyəti demək idi. Ona görə də bu şəhər düşməndən təmizlənəndən sonra artıq qəsbkar dərk etdi ki, bundan belə Azərbaycana qarşı müqavimət göstərmək heç bir önəm daşımır. Çünki Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad etdi və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, ötən il noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı.***

Şuşanın işğaldan azad edilməsi Azərbaycanın gücünü, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şəhərin düşməndən alınması çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Dünya hərb tarixində xüsusi yer tutacaq bu əməliyyatda yalnız yüngül silahlarla silahlanan qəhrəman ordumuz dağlardan, meşələrdən, cığırlardan keçərək şanlı qələbə əldə etdi.

Bu gün işğaldan azad edilən yaşayış məntəqələrimizdə, eləcə də Şuşada ermənilər tərəfindən dağıdılan infrastrukturun bərpası istiqamətdə genişmiqyaslı layihələr reallaşdırılır. Şuşada dağıdılan məscidlər, tarixi abidələr, məktəblər bərpa olunur. Şəhər işğaldan öncə olduğu kimi, Azərbaycanın yenidən əsas turizm mərkəzinə çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 29-da Şuşa şəhərinə səfəri zamanı bunun bir daha şahidi olduq. Səfər çərçivəsində şəhərdə "Otel və Konfrans Mərkəzi"nin təməli qoyuldu, Üzeyir Hacıbəylinin ev-muzeyində aparılacaq işlər nəzərdən keçirildi. Eyni zamanda, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin, Bülbülün ev-muzeyinin, dahi şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin və büstünün, həmçinin "Qarabağ" hotelinin açılışı mərasimləri reallaşdı.

Dövlətimizin başçısı avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimində çıxış edərək şəhərdə genişmiqyaslı bərpa, abadlıq-quruculuq işlərinə toxunaraq bildirib: "Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir".

Ölkə rəhbəri çıxışında daha sonra bu il yanvarın 14-dən Şuşanın tarixi abidələrinin bərpasına start verildiyini, Vaqifin məqbərəsinin artıq bərpa edildiyini, üç məsciddə təmir-bərpa işlərinin getdiyini, Natəvan bulağının bərpa olunduğunu, "Xarıbülbül" otelinin istifadəyə verildiyini də vurğulayıb.

Bütün bunlar artıq Şuşamıza uzun illərdir gözlənilən yeni nəfəs, yeni canlanma gəldiyini göstərir. Xalqımızın qəlbində uzun illər bir yara kimi hər gün qanayan Şuşa nisgili hazırda sevinc, fərəh hisslərində özünü büruzə verir. İnsanlar öz qədim tarixinə, əzəli-əbədi torpaqlarına qovuşur. Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi, Şuşa, Kəlbəcər, Laçın və işğaldan azad olunan bütün torpaqlarımızda genişmiqyaslı quruculuq, abadlıq işlərinin aparılması dövlətimizin bu sahəyə böyük önəm verdiyinin bariz nümunəsi kimi diqqət çəkir.

***Mirəli ALOSMANOV,***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin professoru***

Xalq qəzeti.- 2021.- 31 avqust.- S.10.